**ABŞ Dövlət Departamentinin 2023-cü il üzrə "Beynəlxalq Dini Etiqad Azadlığı" hesabatı: AZƏRBAYCAN**

## Xülasə


Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, din dövlətdən ayrıdır və bütün dini etiqadlar qanun qarşısında bərabərdir. Bundan əlavə, hər kəsin dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək hüququ vardır və dini mərasimləri yerinə yetirmək (bu cür mərasimlər ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyilsə) sərbəstdir. Qanunvericiliyə əsasən dövlətin dini qurumların fəaliyyətinə qarışması qadağandır. Bundan əlavə, dövlət və vətəndaş cəmiyyəti dini "ekstremizm" və "radikalizm"lə mübarizə aparmalıdır. Qanunda qeyd edilir ki, dini təşkilat irqi, milli, dini, sosial ədavət və düşmənçilik yaradırsa, insan ləyaqətini alçaldan dini cərəyanların yayılması və təbliği ilə məşğul olursa və ya dünyəvi təhsilin alınmasına mane olursa dövlət onu ləğv etmək hüququna malikdir. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) bütün məscidlərdə din xadimlərinin təyinatını həyata keçirir. Dövlət həmçinin qeyri-İslam dini icmalarında din xadimlərinin təyinatını təsdiq etmək səlahiyyətinə malikdir.

Yerli insan hüquqları qrupları və digərləri bildiriblər ki, hökumət dini fəalları fiziki zorakılığa məruz qoymağa, müvəqqəti olaraq ünsiyyətdən kənarda saxlamağa, həbs etməyə davam etmişdir. Bundan əlavə, bir çox din xadimlərinin, o cümlədən narkotik maddə saxlamaq ittihamı ilə, həbs edilməsinin arxasında siyasi motivlərin dayandığı bildrilmişdir. Qeyri-hökumət təşkilatları (QHT-lər) və beynəlxalq müşahidəçilər hökumətin təxmini yüzlərlə fəalı və hökumətin "uyğunsuz" hesab etdiyi şiə müsəlmanını həbs etdiyini hesab edib. Bu həbslərin bir çoxu ölkənin İranla gərginləşən münasibətləri, o cümlədən yanvar ayında Azərbaycanın Tehrandakı səfirliyinə hücum və mart ayında İranı tənqid etməsi ilə tanınan millət vəkilinə qarşı Azərbaycanda hazırlanan sui-qəsd cəhdi ilə əlaqədar baş verib. Hökumət məhbusların əksəriyyətini narkotik vasitə saxlamaqda ittiham edib, lakin həbs olunanların çoxu onların həbslərinin İranda şiə din xadimlərinə onlayn dəstəkləri, vicdan məhbusları üçün vəsait toplamaları və ya İrana dini ziyarətlərdə iştirakla bağlı olduğuna inandıqlarını bildirib. Bir neçə məhbus polisi üzərlərinə narkotik maddə qoymaqda və cinayəti etiraf etmədikləri təqdirdə zorlanacaqları ilə hədələməkdə ittiham edib. İl ərzində hökumət tərəfindən dini ayinlərin oxunması üçün ictimai yerlərdə toplaşan "uyğunsuz" şiə şəxsləri həbs edilib.

Azərbaycan Siyasi Məhbusların Azadlığı Uğrunda İttifaqı QHT-ı bildirib ki, 2022-ci ilin sonuna olan 22 nəfər ilə müqayisədə, bu ilin sonuna olan məlumata əsasən, 183 nəfər dini inanc və əməllərinə görə həbs olunub. Bu qrupa qeydiyyatdan keçməmiş, hökumətin qeyri-qanuni təşkilat hesab etdiyi və milli və dini nifaq fəaliyyətini həyata keçirən və İrandan maliyyə almaqda ittiham edilən Müsəlman Birliyi Hərəkatının (MBH) 59 üzvü daxildir. MBH üzvləri həbsdə olarkən səlahiyyətli

orqanların onlara fiziki təzyiq göstərdiyini bildirməyə davam etmişdirlər. Bəzi vətəndaş cəmiyyəti fəalları və insan hüquqları müdafiəçiləri MBH üzvlərinin həbs edilməsini siyasi motivli hesab edir. Sentyabrın 28-də Bakı məhkəməsi İranda təhsil almış şiə imamı Sərdar Babayevi vətənə xəyanətdə təqsirli bilərək 17 il müddətinə azadlıqdan məhrum edib. İnsan hüquqları müdafiəçiləri Babayevin həbsinin onun dini fəaliyyəti ilə bağlı olduğunu bildirir.

İyun ayında Avropa Şurasının İrqçilik və Dözümsüzlüyə Qarşı Avropa Komissiyası (ECRİ) əqidəsinə görə hərbi xidmətdən imtina edən şəxslərin həbsi ilə bağlı davam edən narahatlığını bildirdi və hakimiyyəti konstitusiyada nəzərdə tutulduğu kimi alternativ xidmətə icazə vermək üçün zəruri qanunvericilik tədbirləri həyata keçirməyə təşviq etdi. İyunun 8-də Yehova Şahidi və əqidəsinə görə məcburi hərbi xidmətdən imtina edən Seymur Məmmədov Ali Məhkəməyə verdiyi son apellyasiya şikayətini uduzub. İlin sonunda DQİDK 2 yeni müsəlman icmanı qeydiyyatdan keçirib. İyun ayında DQİDK 2022-ci ildən bəri 181 müsəlman din xadimini tutduqları vəzifələrdən azad etdiyini bildirib. Rəsmilərin daha öncəki açıqlamalarında bunun “İranın təsiri altında olması” ilə bağlı olduğu qeyd edilib.

Dini məsələlər üzrə yerli ekspertlər, dini liderlər və vətəndaş cəmiyyəti nümayəndələri geniş ictimaiyyətin "ənənəvi" hesab etdiyi (yəni ölkədə tarixən mövcud olan) yəhudilər, rus pravoslavları və katoliklər də daxil olmaqla, azlıqların dini qruplarına qarşı tolerantlıq nümayiş etdirməyə davam etdiyini və bəzi hallarda maddi dəstək göstərdiyini bildirmişdir. Eyni mənbələrə görə, bəzi şəxslər tarixən ölkədə mövcud olmayan dini qruplara şübhə və inamsızlıqla yanaşır.

ABŞ müvəqqəti işlər vəkili və ABŞ səfirliyinin digər vəzifəli şəxsləri vətəndaş cəmiyyəti və dini qrupların dini inanclarına görə həbs edildiyini bildirdikləri şəxslərin azad edilməsi üçün hökumət rəsmiləri ilə təması davam etdirib. Səfirlik müşavirləri həmçinin ölkədə “uyğunsuz” şiə müsəlmanların geniş miqyaslı həbsləri ilə bağlı hökumətə narahatlıqlarını ifadə ediblər. Müvəqqəti işlər vəkili və səfirliyin müşavirləri hökumət rəsmilərini kiçik dini icmaların qeydiyyat prosesi ilə bağlı uzun müddətdir ki davam edən problemləri həll etməyi və konstitusiyaya uyğun olaraq, dini etiqadı həqiqi hərbi xidmət keçməyə zidd olan vətəndaşlara həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunması üçün şərait yaratmağın vacibliyini vurğulayıblar. Səfirliyin müşavirləri və Azərbaycanda səfərdə olan ABŞ Dövlət Departamentinin rəsmiləri hökumət rəsmiləri ilə görüş zamanı ilə dinə sərbəst şəkildə etiqad etməyə təsir edən  qanunların və Azərbaycanın nəzarətinə qaytarılan ərazilərdə dini və mədəni abidələrin qorumasının vacibliyini təbliğ ediblər. ABŞ müvəqqəti işlər vəkili və ABŞ səfirliyinin digər vəzifəli şəxsləri ölkədəki dini etiqad azadlığını müzakirə etmək üçün mütəmadi olaraq qeydiyyata alınmış və alınmamış dini qrupların və vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüşlər keçirib.

29 dekabr 2023-cü il tarixində 1998-ci ilin Beynəlxalq Dini Etiqad Azadlığı Aktına uyğun olaraq, ABŞ Dövlət Katibi Azərbaycanı dini etiqad azadlığının pozulması və ya pozuntulara dözümlü yanaşmasına görə Xüsusi Nəzarət Siyahısına daxil edib.

## Bölmə I. Dini demoqrafiya

ABŞ hökuməti ümumi əhalinin 10,6 milyon nəfər olduğunu təxmin edir (2023-cü ilin ortaları üçün). DQİDK-nin məlumatına əsasən, əhalinin 96 faizi müsəlmandır, bunun da təxminən 65 faizi şiə və 35 faizi sünnilərdir. Əhalinin qalan 4 faizini təşkil edən qruplara rus və gürcü pravoslav kilsələri, Yeddinci Günün Adventistləri, Molokan kilsəsi, Roma katolik kilsəsi, digər xristianlar, o cümlədən Yevangelist xristianları, baptistlər, "Yehova Şahidləri", yəhudilər, bəhailər, Beynəlxalq Krişna Şüuru Cəmiyyəti və heç bir dinə etiqad etməyənlər daxildir.

Xristianlar əsasən Bakıda və digər şəhərlərdə yaşayır. Stenford Universiteti və Yerusəlim Yəhudi Universitetinin 2020-ci il üzrə araşdırmasına əsasən, yəhudilərin sayının 7,200 – 20,000 olduğu təxmin edilir, yəhudi icmasının liderləri isə bu rəqəmin 15,000 ilə 20,000 arasında olduğunu bildirir.

## Bölmə II. Dini etiqad azadlığına hökumətin münasibəti

### Hüquqi baza

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, din dövlətdən ayrıdır və inancından asılı olmayaraq bütün dinlər və insanlar qanun qarşısında bərabərdir. Konstitusiyaya əsasən, hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Bundan əlavə dini mərasimlər ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyilsə onların yerinə yetirilməsi sərbəstdir. Konstitusiyada qeyd edilir ki, heç kəs dini əqidəsini nümayiş etdirməyə məcbur edilə bilməz və bu səbəbdən təqsirləndirilə bilməz.

Dini etiqad azadlığı qanununa və müvafiq düzəlişlərə əsasən "dini qurumlar" kimi adlandırılan dini təşkilatlar (dini qruplar, icmalar və denominasiyaların müxtəlif dini yığıncaqlarını əhatə edir) DQİDK vasitəsilə dövlət qeydiyyatına alınmalıdır. DQİDK dövlət qeydiyyatına alınma prosesinə nəzarət edir və dini qrupun fəaliyyətinin dayandırılması ilə bağlı məhkəməyə müraciət etmək hüququna malikdir. Dini icmanın qeydiyyatı onun ərizəsində göstərilən ünvana bağlıdır. Sonrakı yerdəyişmələr və ya fəaliyyətin digər ərazilərə genişlənməsi üçün təkrar qeydiyyat tələb edilir. Qeydiyyata alınan dini təşkilatlar iclaslar keçirmək, bank hesabı saxlamaq, əmlakı icarəyə götürmək, hüquqi şəxs qismində çıxış etmək və dövlətdən vəsaitlər almaq hüquqlarını əldə edir.

Qeydiyyata alınmaq üçün dini icma onun üzvü olduğu azı 50 nəfər şəxs tərəfindən imzalanmış və notarial qaydada təsdiq edilmiş ərizəni, nizamnaməni və təsis sənədlərini, təsisçilərin adlarını və təşkilatın hüquqi ünvanını və bank məlumatlarını DQİDK-ya təqdim etməlidir. Qanuna əsasən, ərizəyə həmin 50 nəfərin vətəndaşlığı, yaşayış yeri və doğum tarixi, dini təlimin əsasları haqqında məlumatlar, o cümlədən, şəxsiyyəti təsdiq edən sənədlərin surətləri əlavə edilir. Bunlarla yanaşı, ərizəyə dini icmanın yaranması tarixi, onun fəaliyyətinin forma və metodları, ənənələri, ailəyə, nikaha və təhsilə münasibət, həmin icmanın üzvlərinin hüquq və vəzifələrinə qoyulan məhdudiyyətlər barədə məlumatlar əlavə edilir.

Qanuna əsasən, hökumət 30 gün ərzində qeydiyyata alınmaya dair ərizəni nəzərdən keçirərək qərar qəbul etməlidir, lakin hökumətin vaxtında qərar qəbul etmədiyi təqdirdə görüləcək tədbirlərə dair heç bir məlumat yoxdur. Dini icmanın fəaliyyəti və ya qarşısına qoyduğu məqsədlər, yaxud təbliğ etdiyi dini təlimin mahiyyəti və əsas prinsipləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olduqda, habelə təqdim olunmuş nizamnamə və ya digər təsis sənədləri qanunvericiliyinin tələblərinə zidd olduqda və ya onlarda əks olunmuş məlumatlar yanlış olduqda dini təşkilatın dövlət qeydiyyatına alınmasından imtina edilə bilər. Dini icmalar qeydiyyatdan imtina ilə bağlı məhkəmələrə apelyasiya şikayəti təqdim edə bilər.

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) DQİDK tərəfindən təşkilat kimi qeydiyyata alınmışdır və mütəmadi olaraq, ibadətlərə dair monitorinq, Məkkəyə həcc ziyarətinin təşkili və qeydiyyatdan keçmiş İslam icmalarının fəaliyyətlərinə nəzarət edir. Müsəlman icmaları DQİDK-ya qeydiyyat ərizəsi təqdim etməmişdən əvvəl QMİ-dən təsdiq məktubu almalıdırlar.

2022-ci ildə dini ediqad azadlığı qanununa edilən düzəlişlərə əsasən, bütün məscidlərdə din xadimlərinin təyinatı və işdən azad olunmaları ilə bağlı səlahiyyət QMİ-dən DQİDK-ya keçib. 2022-ci ildə DQİDK kollegiyası "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi qaydası"nı təsdiq edib. Yeni qaydalara əsasən, DQİDK-nın müsahibə komissiyası imam, imam müavini, müəzzin də daxil olmaqla, dini ayinlərin icraçısı və qadın dini ayinlərin icraçısı vəzifələrinə müraciət edən din xadimləri üçün müsahibələr təşkil edir. Mövcud qaydalara görə yalnız bu dörd vəzifədən birini tutan şəxslər məsciddə moizə oxumaq hüququna malikdir. DQİDK-nın qaydaları bu dörd vəzifədən birini yerinə yetirən hər bir müsəlman din xadiminin "ali [təhsil] və orta ixtisas dini təhsili [və] İslami fəaliyyətlə peşəkar şəkildə məşğul olmasını" tələb edir. Müsahibə komissiyası yeddi nəfərdən ibarətdir. Komissiyaya Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) və Mənəvi Dəyərlərin Təbliği Fondunun nümayəndələri daxildir. Komitənin sədri kimi DQİDK-nın sədr müavini çıxış edir. Yeni qaydalara əsasən, müsahibədən uğurla keçmiş namizəd müsahibə bitdikdən sonra 30 iş günü ərzində Komitə sədrinin əmri ilə ibadət yerinə və ya ziyarətgaha din xadimi təyin olunur.

Müsahibədən uğurla keçən, lakin vakant vəzifəyə təyin olunmayan namizədlər iki il müddətində Komitə tərəfindən ehtiyat kadr kimi saxlanılırlar.

İmamlar beş ildən bir attestasiya (təkrar attestasiya) imtahanlarından keçməlidirlər. 2022-ci ildə qüvvəyə minmiş qaydalara əsasən, DQİDK sədrinin müavini əvvəllər QMİ tərəfindən icra edilən imamların yenidən təyin edilməsi funksiyasını həyata keçirən DQİDK, QMİ, AİT və Mənəvi Dəyərlərin Təbliği Fondunun nümayəndələrindən ibarət 9 nəfərlik komissiyaya sədrlik edir. DQİDK-nın sədri komissiya üzvlərinin, o cümlədən, komissiyanın sədri və katibinin attestasiyasını təsdiq edir. Qaydalara əsasən, digər əsaslarla yanaşı, aşağıdakı əsaslar olduqda DQİDK-nın sədri imamı tutduğu vəzifədən azad edə bilər: "fəaliyyətdə mənəvi dəyərlərə, etik-əxlaqi prinsiplərə zidd hərəkətlər aşkar edildikdə" və ya "xarici dövlətlər və təşkilatlar, habelə əcnəbi və vətəndaşlığı olmayan şəxslər qarşısında öhdəliyi yarandıqda".

DQİDK İslama aid təhsil müəssisələrinə nəzarət edən, məscidlərdə iclaslar zamanı oxunan dini ədəbiyyatın məzmununu, habelə moizələrin mətnini təsdiq edən, ibadət yerlərinin tikintisinə və ya təmirinə icazə verən yeganə qurumdur. DQİDK, həmçinin, QMİ-nin əsas dini bayramların qeyd olunması məqsədilə məscidlər üçün seçdiyi tarixlərə riayət olunmasını təmin edir və rəsmi təsdiqlənmiş günlərdən fərqli günlərdə bayramlara toplaşan imamları işdən azad etmək hüququna malikdir.

Qanuna əsasən, qeydiyyata alınmamış dini icmaların fəaliyyəti qadağandır və bu cür fəaliyyət aşkarlandıqda cərimələr və ya həbs tətbiq edilir.

Qanunvericiliyə əsasən, dövlətin qeydiyyata alınmış hər hansı icma və ya icma üzvünün dini fəaliyyətlərinə müdaxiləsi qadağandır, lakin ekstremist və ya digər qeyri-qanuni fəaliyyətlərin həyata keçirilməsi ilə bağlı şübhələr yarandıqda istisnalar tətbiq edilir. Qanunda qeyd edilir ki, dövlət qurumları və vətəndaşlar "dini ekstremizm" və "radikalizm"lə mübarizə aparmaq hüququ və öhdəliklərini daşıyırlar. Qanuna görə, dini ekstremizm (dini ekstremist fəaliyyət) - dini düşmənçilik, dini radikalizm (dini baxışların müstəsnalığına inam) və ya dini fanatizm (dini inama hər hansı tənqidi yanaşmanın istisna edilməsinə inam) ilə səciyyələnən davranışdır. Qanunda müəyyən edilib ki, bu cür davranışlara şəxsin hər hansı dinə etiqad etməyə, o cümlədən dini ayin və mərasimləri yerinə yetirməyə və ya dini ayin və mərasimlərdə iştirak etməyə məcbur edilməsi, ölkənin Konstitusiya quruluşunun, o cümlədən onun dünyəvi xarakterinin zorla dəyişdirilməsinə yönələn hərəkətlərin törədilməsi, qanunsuz silahlı birləşmələrin və ya qrupların yaradılması, həmin birləşmə və ya qruplarda iştirak və terror fəaliyyətinin həyata keçirilməsi aiddir. Dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində Konstitusiya quruluşunun dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına yönələn hərəkətlərin törədilməsinə görə 15 ildən başlayaraq ömürlük həbsədək cəzalar müəyyən edilmişdir.

Qanun qeydiyyatdan keçmiş dini qurumların hansı hallarda ləğv oluna biləcəyini müəyyən edir: yaranma məqsədlərinə zidd olan fəaliyyətin həyata keçirilməsi, irqi, milli, dini və ya sosial ədavət və ya düşmənçiliyin yaradılması, insan ləyaqətini alçaldan və ya "insanlığa sevgi, xeyriyyəçilik və xeyirxahlıq" kimi insanpərvərlik prinsiplərinə zidd olan dinin (dini cərəyanın) yayılması və təbliğ edilməsi, dünyəvi təhsil alınmasına mane olma və ya dini qurumun üzvlərinin və digər şəxslərin dini qurumun xeyrinə öz əmlakından imtina edilməsinə təhrik və ya məcbur etmə.

Qanuna görə, qeydiyyata alınmış müəyyən dini icmalar "dini mərkəzlər" (idarələr) yarada bilər. Qanuna əsasən, hökumət qeyri-müsəlman dini icmalarında din xadimlərinin təyinatını təsdiq etmək səlahiyyətinə malikdir. Bundan əlavə, uşaqların dinə etiqad etməyə məcbur edilməsi qadağandır; din xadimləri dövlət orqanlarına təyin olunduqda, onların peşəkar dini fəaliyyəti həmin vəzifədə olduqları müddətdə dayandırılır; dini mərkəzlər tərəfindən dini təhsil müəssisələrinin yaradılması hakimiyyət orqanları ilə razılaşdırılmalıdır; dini ayinlər (istisnalar mövcuddur) dini ibadət yerlərində və ziyarətgahlarda keçirilməlidir; xarici ölkələrdə yerləşən yerlərə ibadət məqsədilə dindarların ziyarətləri haqqında məlumatlar hakimiyyət orqanlarına verilməlidir; təyin edilmiş din xadimi tutduğu vəzifədən azad edildikdə, həmin vəzifəyə yeni din xadimi təyin olunanadək dini icmalar öz fəaliyyətini dayandırmalıdır; döyüş əməliyyatları ilə əlaqədar olan hallar istisna olmaqla, asudə vaxtlarında hərbi qulluqçuların dini ibadət etmələrinə icazə verilir.

Dini mərkəzi olmayan kiçik icmalar xarici vətəndaşı dini xadim kimi təyin etmək üçün müraciət etmək, dini təhsil müəssisələrini təsis etmək, üzvlərinin xaricdəki ziyarətgahlara və dini yerlərə səfərlərini təşkil etmək və ya yalnız dini mərkəzlər üçün nəzərdə tutulmuş digər imkanlardan istifadə etmək hüququna malik deyil. Kütləvi dini ibadət, ayin və mərasimlər (istisnalar mövcuddur) dini ibadət yerlərində və ziyarətgahlarda keçirilir. Dini "kütləvi tədbirlər"in dövlət tərəfindən təsdiq edilmiş ibadət yerlərindən və ya ziyarətgahlardan başqa hər hansı məkanda keçirilməsi üçün DQİDK-nın icazəsi tələb olunur.

Dini ibadət, ayin və mərasimlərin aparılması yalnız ölkə vətəndaşları tərəfindən həyata keçirilir. Xaricdə dini təhsil almış vətəndaşlar yalnız QMİ və ya DQİDK ilə razılaşdırmaqla İslam dininə aid ayin və mərasimlərin aparılmasına buraxıla bilər. Qanunun pozulmasına görə cəzalara bir ilədək müddətə azadlıqdan məhrum edilmə və ya 1 000 manatdan 5 000 manatadək (590 – 2, 950 ABŞ dolları) cərimə daxildir. Qanuna əsasən, qeydiyyata alınmış dini qruplar tərəfindən dəvət edilmiş əcnəbilərin dini ibadət aparmalarına yol verilir. Hökumət və Müqəddəs Taxt-Tac arasında uzun müddət davam edən razılaşma əcnəbilərə katolik ayinləri aparmağa icazə verir.

Qanuna əsasən, dini ibadət yerlərindən və ziyarətgahlardan kənarda dini şüarların və digər dini simvolların istifadəsi qadağandır.

DQİDK dini ədəbiyyatın məzmununu, idxalın qanuniliyini, satış və paylamanı nəzərdən keçirir və təsdiq edir. Qanunda müvafiq icazə olmadan idxal, satış və yayma

məqsədi ilə dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarda), audio və video materialların, dini təyinatlı əşyaların və dini xarakterli digər informasiya materiallarının istehsalı, satışı və yayılmasına görə cəzalar nəzərdə tutulur. Qanunu ilk dəfə pozanlara tətbiq olunan cəzalara 5,000 manatdan 7,000 manatadək (2,950 – 4,100 ABŞ dolları) məbləğdə cərimə, 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 2 il müddətinə azadlıqdan məhrumetmə daxildir. Qanun pozuntusu bir qrup şəxs tərəfindən "qabaqcadan əlbir olaraq", mütəşəkkil dəstə, fiziki şəxs və ya vəzifəli şəxs tərəfindən ikinci dəfə törədildikdə 7,000 manatdan 9,000 manatadək (4,100 – 5, 300 ABŞ dolları) məbləğdə cərimə, 2 ildən 5 ilədək müddətə azadlığın məhdudlaşdırılma və ya maksimum 5 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq edilir.

Dövlət və ya özəl ibtidai və ya orta məktəblərin tədris proqramlarında ayrıca dini komponent yoxdur, lakin şagirdlər qeydiyyatdan keçmiş müəssisələrdə məktəbdənkənar dini təhsil ala bilərlər. İnzibati xətalar məcəlləsinə əsasən, ruhanilər və dini qurumların üzvləri tərəfindən uşaqlar və gənclər üçün xüsusi yığıncaqların keçirilməsi, habelə, uşaqların dini etiqada məcbur edilməsi qadağandır. "Dini etiqad azadlığı haqqında" qanuna əsasən, uşaqların dini tərbiyəsi "onların fiziki və psixi sağlamlığına mənfi təsir göstərməməlidir".

Tələbələr Aİİ kimi ali təhsil müəssisələrində dini təhsil ala bilərlər və QMİ xaricdə keçirilən müəyyən dini təlimləri maliyyələşdirir. Qanun hökumətin icazəsi olmadan xaricdə dövlət tərəfindən və ya fərdi şəkildə maliyyələşdirilən dini təhsil alan şəxslərin ölkəyə qayıtdıqdan sonra rəsmi dini vəzifələr tutmasını, dini təbliğat aparmasını və ya moizə oxumasını qadağan edir.

Konstitusiyaya əsasən, vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, "müəyyən edilmiş hallarda" həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilsə də, dini əsaslar da daxil olmaqla, alternativ xidməti nəzərdə tutan qanunvericilik mövcud deyil. Hərbi xidmətdən imtina Cinayət Məcəlləsinə əsasən 2 ilədək müddətə azadlıqdan məhrumetmə və ya məcburi çağırışla cəzalandırılır.

Qanunda nəzərdə tutulur ki, hökumət terror aksiyalarında, dini ekstremist aksiyalarda iştirak edən, dini təhsil almaq adı ilə xaricdə hərbi hazırlıq keçən, Qanunun dəqiq tərifini vermədiyi dini doktrinaları "düşməncəsinə" təbliğ edən; dini mərasimlərin yerinə yetirilməsi adı altında xarici ölkədə dini münaqişələrdə iştirak edən şəxsləri vətəndaşlıqdan məhrum edə bilər.

Konstitusiyaya əsasən, Qanun "din xadimləri"nin seçkilərdə iştirakını məhdudlaşdıra bilər və onların parlamentə seçkilərdə iştirak etməsini qadağan edir. Qanunda "din xadimləri" ifadəsinin tərifi verilmir. Qanun dini liderlərə eyni zamanda hər hansı dövlət vəzifəsində və dini rəhbərlik vəzifəsində xidmət göstərməyi qadağan edir. Qanuna görə, siyasi partiyalar dini fəaliyyətlə məşğul ola bilməz. Qanun din

xadimlərinin siyasi partiyaların fəaliyyətində iştirakını və onlara maddi yardım göstərməsini də qadağan edir.

Konstitusiya “insan ləyaqətini alçaldan və humanizm prinsiplərinə zidd olan dinlərin təbliğatını”, həmçinin dini ədavəti qızışdıran “təbliğat”ı qadağan edir. Qanun həmçinin şəxslərə qarşı dini əqidəyə əsaslanan hədə-qorxu və ya təhqiramiz ifadələri qadağan edir.

Qanun əcnəbilərin prozelitizmini qadağan edir, lakin vətəndaşlara bunu qadağan etmir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən prozelitizm halları üçün qanun 1 ildən - 2 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası müəyyən edir.

Qanun pasport fotoşəkillərində baş örtüyündən istifadəni qadağan edir.

Ölkə Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı imzalayıb.

**Hökumət tərəfindən həyata keçirilən tədbirlər**

**Zorakılıq, Saxlanma və ya Kütləvi Köçürmə ilə əlaqəli pozuntular**

Yerli insan hüquqları qrupları və digərləri bildiriblər ki, hökumət dini fəalları fiziki zorakılığa məruz qoymağa, müvəqqəti olaraq ünsiyyətdən kənarda saxlamağa, həbs etməyə davam etmişdir.

Qeyri-hökumət təşkilatları və beynəlxalq müşahidəçilər hökumətin il ərzində yüzlərlə “uyğunsuz” şiə müsəlmanı və fəalı həbs etdiyini və bunun ölkənin İranla gərginləşən münasibətləri, o cümlədən yanvar ayında Azərbaycanın Tehrandakı səfirliyinə hücum və mart ayında İranı kəskin tənqid edən millət vəkilinə qarşı Azərbaycanda sui-qəsd cəhdi ilə bağlı hesab edir. Müşahidəçilər atışmadan sonra 24 saat ərzində hakimiyyət orqanlarının 400 nəfəri saxladığını təxmin edir. Hakimiyyət daha sonra silahlı şəxs də daxil olmaqla bir neçə Azərbaycan vətəndaşına qarşı ittiham irəli sürüb və İrandakı mənbələrin təqsirləndirilən şəxslərə rəhbərlik etdiyini bildirib.

Polis həm atışmadan əvvəl, həm də atışmadan sonrakı həftələrdə daha yüzlərlə insanı həbs edib. Hökumətyönümlü media həbs edilən şəxslərin İran adından casusluq, təxribat və ya çevriliş cəhdlərində iştirak etdiyini bildirib. Həbs edilənlərin bir çoxu, həbslərinin şiə din xadimlərinə onlayn dəstəkləri, vicdan məhbusları üçün vəsait toplamaları və ya İrana dini ziyarətlərdə iştirakla bağlı olduğuna inandıqlarını bildirib. Bu şəxslərin demək olar ki, hamısı narkotik vasitə saxlamaqda və yaymaq niyyətində ittiham olunub. Məsələn, hökumət hökumətyönlü media mənbələri tərəfindən daha öncədən millət vəkilini güllələnməsində dörd sui-qəsdçidən biri olduğu bildirilən bir şiə şəxsi külli miqdarda narkotik vasitə saxlamaqda ittiham edib. Media mənbələrinin bildirdiyinə görə, hakimiyyət onu iki gün gizli saxlayıb və bu müddət ərzində onun harada olduğunu ailəsinə və ya vəkilinə açıqlamaqdan imtina edib. Saxlanılanların bir çoxu ağır fiziki zorakılıq, cinsi təcavüz, zorlama və ya cinsi

zorakılıqla hədələmə (o cümlədən ailə üzvlərinə qarşı), və ya digər məcburetmə taktikalarından sonra etiraf etdiklərini bildirib.

Mətbuatda yayılan məlumatlara görə, sentyabrın 28-də Bakı məhkəməsi şiə imamı Sərdar Babayevi dövlətə xəyanətdə ittiham edərək 17 il müddətinə azadlıqdan məhrum edib. İlin sonunda Babayevin Avropa İnsan Haqları Məhkəməsində (AİHM) üç ayrı apellyasiya şikayəti var. İki şikayət 2017-ci ildəki məhkumluğundan, biri isə 2021-ci ildə dövlətə xəyanət ittihamı ilə bağlı həbsi ilə bağlıdır. 2021-ci ildə hökumət İranda dini təhsil almış Babayevi İranın xüsusi xidmət orqanları ilə əməkdaşlıq etməsi iddiası ilə dövlətə xəyanətdə ittiham edib. İşlə tanış olan hüquq müdafiəçiləri və vəkillər dövlətə xəyanət ittihamlarının uydurma və siyasi motivli olduğunu bildiriblər. Babayev əvvəllər xaricdə təhsil aldıqdan sonra 2017-ci ildən 2020-ci ilə kimi ibadətlərə rəhbərlik etdiyi üçün üç il həbs cəzası çəkib.

QHT-lər bildiriblər ki, səlahiyyətli orqanlar qeydiyyata alınmamış MBH ilə bağlılığı olan şəxsləri müvəqqəti olaraq ünsiyyətdən kənarda saxlamağa və onlara qarşı hüquqi tədbirlər görməyə davam edib. Səlahiyyətli orqanlar hərəkatın qarışıq dini və siyasi ideologiyanı dəstəklədiyini və onun İranla əlaqələrindən narahat olduqlarını bildiriblər. Əvvəlki illərdə olduğu kimi, hüquq müdafiəçiləri və digər vətəndaş cəmiyyəti fəalları ittihamları əsassız və siyasi fəaliyyətə mane olmaq məqsədi daşıyan ittiham kimi səciyyələndiriblər.

Fevralın 1-də Daxili İşlər Nazirliyi 39 nəfəri "din pərdəsi" altında təxribat və iğtişaşlar törətməkdə ittiham edərək həbs etdiyini açıqlayıb. Hökümətyönümlü Azərbaycan Mətbuat Agentliyinin (APA) nazirliyin yaydığı məlumata əsaslanaraq bildirib ki, "saxlanılan şəxslər özlərini dindar kimi təqdim edərək, sosial şəbəkələrdə İranın əleyhinə təbliğat aparıb, ölkədə dini etiqad azadlığını pozaraq İran xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetiriblər."

İnsan hüquqları üzrə QHT-lər və digərləri dini fəalların narkotik maddə saxlamaq ittihamı ilə təqib edilməsinin əksər hallarda siyasi motivli olduğunu bildirməyə davam ediblər. Media mənbələri xəbər verir ki, avqustun 31-də polis MBH-nın idarə heyətinin üzvü Ağəli Yəhyayevi həbs edib və onu narkotik vasitələrin qanunsuz dövriyyəsində ittiham edib. Yəhyayev daha öncədən 2015-ci ildə Nardaran qəsəbəsində MBH-na qarşı reydlərdən sonra həbs edilib və 2021-ci ildə prezident tərəfindən əfv olunub. Sentyabrda onun həyat yoldaşı və digər ailə üzvləri mətbuata bildiriblər ki, polis əməkdaşları etiraf almaq üçün Yəhyayevə fiziki təzyiq göstəriblər. Ailəsinin dediyinə görə, məmurlar onun ayaqlarını dəyənəklə dəfələrlə döyüb, nəticədə o ağır bədən xəsarətləri alıb və beysbol çubuğu ilə zorlanacağı ilə hədələnib.

Media mənbələrinin məlumatına görə, avqustun 29-da polis Bakının Xocəsən rayonundakı məscidin imamı Telman Əsədullayevi narkotik qaçaqmalçılığı ittihamı ilə həbs edib. Mətbuatın məlumatına görə, məmurlar Əsədullayevə qaçaqmalçılıqda

ittiham etdikləri narkotikləri özləri veriblər və onu zorlamaqla hədələyərək etiraf etməyə məcbur ediblər.

Kütləvi İnformasiya Vasitələri xəbər verir ki, ailə üzvlərinin bildirdiyinə görə, həbsdə olan MBH üzvü Ceyhun Balaşov iyul ayında məhkəmədə rəsmilərin onu narkotik ittihamını etiraf etməyə məcbur etməyi barədə verdiyi ifadədən sonra hakimiyyət orqanları tərəfindən şiddətlə döyülüb. Ailəsi bildirib ki, o, avqust ayında əhəmiyyətli dərəcədə göyərmə və daxili qanaxma ilə nəticələnən ağır fiziki zorakılıqdan sonra xəstəxanaya yerləşdirilib.

MBH nümayəndələri sosial şəbəkələrdə yazıblar ki, yanvarın 20-də hökumət 1990-cı ildə Sovet qüvvələrinin Sovetlər Birliyinə qarşı etiraz edənləri zorakılıqla yatırdığı "Qara Yanvar" tarixini qeyd etmək üçün Bakıdakı Şəhidlər Xiyabanı qəbiristanlığı və xatirə abidəsinə daxil olmağa cəhd edən qrupun yeddi üzvünü həbs edib. MBH, təxminən 50 nəfərin əraziyə gedərkən şiə dini şüarları səsləndirdiyini göstərən videolar yayımlayıb.

Bir jurnalistin bildirdiyinə görə, hakimiyyət sentyabrın əvvəlində üç günlük müddət ərzində 20-dən çox dindar və fəalı həbs edib. Azərbaycan Siyasi Məhbuslara Azadlıq İttifaqı qeyri hökumət təşkilatı 2022-ci ildəki 22, və 2021-ci ildəki 21 nəfərlə müqaisədə bu ilin sonuna olan məlumata görə, 183 nəfəri "dinc dindar" kimi müəyyən edib ki, bu şəxsləri dini etiqadlarını yerinə yetirdiklərinə və ya hökumətə qarşı dini əsaslı siyasi müxalifət olduqlarına görə həbs olunduqlarını hesab edir. Hüquq müdafiəçilərinin fikrincə, 2021-ci ildən 2023-cü ilə qədər, həbsdə olan insan haqları qrupları tərəfindən "dinc dindarlar" kimi müəyyən edilənlərin sayının kəskin artması, əsasən, hökumətə yaxın media mənbələrinin Irandakı şiə qrupları ilə əlaqəsi olduğu bildirilən, lakin hökumətin narkotik ilə əlaqəli cinayətlərdə ittiham etdiyi şiə müsəlmanların kütləvi həbsləri ilə bağlıdır. Azərbaycan Siyasi Məhbusların Azadlıq İttifaqının bildirdiyinə görə, saxlanılanlar arasında MBH-ın 59 üzvü, o cümlədən onun rəhbəri Tale Bağırzadə və 2015-ci ildə saxlanılan MBH-ın digər beş üzvü terrorizm, cinayət təşkilatı, və silahdan istifadə, və 2015-2022-ci illər arasında narkotik maddə ilə bağlı ittihamlarla həbs edilmiş daha 6 MBH üzvü, həmçinin Azərbaycan İslam Partiyasının lideri Mövsüm Səmədov yer alır. Azərbaycan Siyasi Məhbusların Azadlıq İttifaqının məlumatına görə, hakimiyyət təkcə 2023-cü ildə 59 MBH üzvündən 40-dan çoxunu həbs edib. Onların böyük əksəriyyəti fevraldan aprelə qədər həbslərin pik dövründə həbs edilib.

Yerli KİV-lər bildiriblər ki, oktyabrın 18-də Bakı məhkəməsi MBH üzvü Bəxtiyar Balaşovu media mənbələrinin dediyinə görə fiziki sübutun çatışmazlığına baxmayaraq polisin ifadəsi əsasında narkotik ittihamı ilə 4 il müddətinə azadlıqdan məhrum edib. Məlumata görə, hökumət Balaşovu martın 9-da həbs edib, bir neçə gün onu qapalı saxlayıb və qanuni təmsilçiliyə imkan verməyib.

Hökumət bu müddəanın konstitusiyaya daxil edilməsinə baxmayaraq, etiqadına görə hərbi xidmətdən imtina edənlər üçün məcburi hərbi xidmətə mülki alternativi yenə də təqdim etməmişdir. Bu cür qanunun qəbulu ilə bağlı vədin verilməsinə baxmayaraq, il ərzində Prezident Administrasiyasının və DQİDK-nın nümayəndələri hökumət tərəfindən alternativ xidmətin müzakirə olunmadığını bildirmişlər. Ölkə 2001-ci ildə Avropa Şurasına üzv olduqdan sonra "Şuraya qoşulduqdan sonrakı iki il ərzində Avropa standartlarına uyğun olaraq Azərbaycanda alternativ xidmət haqqında qanununu qəbul etmək və həbsdə olan və intizam batalyonlarında xidmət keçən, əqidəsinə görə xidmətdən imtina edənləri əfv etmək və alternativ xidmət haqqında qanun qüvvəyə mindikdə onlara silah istifadəsini nəzərdə tutmayan hərbi xidmət və ya alternativ mülki xidmət keçmək arasında seçim etmək imkanını vermək öhdəliyini götürmüşdür".

İyunun 21-də Avropa Şurasının İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyası ölkə ilə bağlı etiqadına görə hərbi xidmətdən imtina edənlərin həbsi ilə bağlı narahatlığını ifadə etdən hesabat yayıb. Hesabatda qeyd olunub ki, hökumət AİHM-in 2019-cu il üçün alternativ hərbi xidmətlə bağlı tövsiyələrini yerinə yetirməyib və hökuməti alternativ xidmətə icazə vermək üçün zəruri qanunvericilik tədbirləri görməyə təşviq edib.

Beynəlxalq dini azadlıq qeyri-hökumət təşkilatı "Forum 18"-in məlumatına görə, iyunun 8-də Yehova Şahidi Seymur Məmmədov alternativ xidmətlə məşğul olmaq istəyini ifadə etməsinə baxmayaraq, vicdan əsasında məcburi xidmətdən boyun qaçırdığına görə məhkumluğu və cəzası ilə bağlı Ali Məhkəmədəki son şikayətini uduzub. 2022-ci ilin dekabrında Gəncə Apellyasiya Məhkəməsi Məmmədovun rayon məhkəməsinin çıxardığı 9 aylıq həbs müddətini bir il müddətinə şərti cəza ilə əvəz edib və bu müddət ərzində onun ayaq biləyi qolbaq monitoru taxmasını tələb edib. DQİDK ilə Avropa Yehova Şahidləri Birliyi arasında iyunun ortalarında keçirilən görüşdə birlik üzvləri hökmə və həbsə etiraz ediblər. Oktyabrın 4-də Məmmədov AİHM-ə şikayət edib.

Yehova Şahidlərinin dediyinə görə, hökumət aprel ayında Eldar Əliyevə onun ordunun bir qolu olan sərhəd qoşunlarına çağırıldığını bildirib. Əliyev aprelin 25-də DQİDK-ya, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə (SHXÇDX) və ombudsmana müraciət edərək alternativ xidmət keçməyi xahiş edib. Həmin gün səlahiyyətlilər onu hərbi bazaya apardılar və o orada könüllü olmayaraq xidmətə qəbul prosesinə başladı. Hökumət onu sonradan azad etdi, lakin iyulun 4-də o, SHXÇDX -dan növbəti çağırış dövründə yenidən hərbi xidmətə çağırılacağını bildirən cavab aldı.

Fevralın 9-da AİHM 2015-ci ildə Nardaran kəndində 7 nəfərin ölümü və bir neçə MBH üzvünün həbsi ilə nəticələnən reyd zamanı hökumətin MBH-ın 8 üzvünə qarşı insan haqlarını pozduğu qərarını verib. İddiaçılar hakimiyyətin onlara işgəncə verdiyini və ədalətli mühakimə olunmadıqlarını bildiriblər. AİHM hökumətə ikisi

həbsdə olan da daxil olmaqla, iddiaçılara hər birinə 8000 avro (8800 dollar) ödəməyi göstəriş verdi.

Avropa Şurasının Nazirlər Komitəsi əvvəlki illərdən Yehova Şahidləri tərəfindən qaldırılan işlərə dair AİHM-in dörd qərarının icrasına nəzarət etdi. Komitənin məlumatına görə, bütün müraciət edənlər müəyyən edilmiş kompensasiyanı alıblar, lakin hökumət dini ədəbiyyatın geri qaytarılması və qanunvericiliyə dəyişikliklərin edilməsi də daxil olmaqla, digər tədbirləri həyata keçirməyib. Forum 18-in məlumatına görə, Azərbaycandan olan müsəlman ərizəçilər il ərzində AİHM-ə dini etiqad azadlığı ilə bağlı 12 yeni iş təqdim ediblər.

**Fərdlərin təkbaşına və ya başqaları ilə birlikdə icma şəklində dini fəaliyyətlə məşğul olmaq imkanlarının pozulması**

İl ərzində DQİDK iki yeni dini icmanı (hər ikisi müsəlman) qeydiyyatdan keçirdib. Müqayisə üçün bu rəqəm 2022-ci ildə 12 və 2021-ci ildə 16 (hamısı müsəlman) olub. DQİDK-nın məlumatına görə, ilin sonunda qeydiyyatdan keçmiş 995 icma var ki, onlardan 958-i müsəlman və 37-si qeyri-müsəlmandır (26 xristian, səkkiz yəhudi, iki bəhai və bir İSKCON). DQİDK 2258 məscid, 16 kilsə, 7 sinaqoq və 5 dini təhsil müəssisəsinin qeydiyyatdan keçdiyini bildirib. İlin sonunda ölkədə 26 xristian ibadət evi (kilsə statusu olmayan ibadət yerləri), iki Bəhai ibadət evi və bir İSKCON ibadət evi var idi.

Yehova Şahidləri yalnız Bakıda qeydiyyata alınmışdır. Baptistlərin və Yehova Şahidlərinin regional bölmələri bildirmişlər ki, onlar qeydiyyata alınma ilə bağlı problemlərlə üzləşiblər, lakin buna baxmayaraq, başqa ərazilərdə açıq şəkildə ibadət edə bilmişdirlər.

DQİDK bildirib ki, o, 2009-cu ildən əvvəlki qeydiyyatlarına əsasən, əvvəllər qeydiyyatdan keçmiş icmaların fəaliyyətinə icazə verən məktubları təqdim etməyə davam edib. DQİDK 2009-cu ildən əvvəlki qeydiyyat statusu ilə əhatə olunmayan yerlərdə bu icmaların dini fəaliyyətlərini qadağan etsə də, sorğu əsasında istisnalar verirdi.

Hökumət kiçik dini icmaların müxtəlif şəhərlərdə olsa da bir təşkilat daxilində birləşməsinə icazə verilir.

Bəzi protestant və evdə ibadət edən kilsə xadimləri bildirmişlər ki, onlar qanuni qeydiyyata alına bilmədiklərinə görə hökumətin addımlarından qorxaraq fəaliyyətlərini gizli saxlamaq məcburiyyətində olmuşlar.

Hökumət "ənənəvi" dini qruplara vəsait ayırmağa davam edib. Sentyabrın 1-də Prezident İlham Əliyev QMİ-yə müsəlman icmaları üçün 1 milyon manat (588 000 ABŞ dolları) (2022-ci ildə olduğu qədər) ayırmışdır. Hökumət həmçinin Rus Pravoslav

Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasına hər birinə 350 000 manat (206 000 ABŞ dolları) ayırıb; dağ yəhudilərinin dini icması; Avropa yəhudi icması (Aşkenazi); Bakı Katolik Kilsəsinin Apostol Prefekturası; alban-udi xristian icması; və Mənəvi Dəyərlərin Təşviqi Fondu; bu məbləğlər 2022-ci ildəki məbləğlərlə eyni idi. Mənəvi Dəyərlərin Təbliği Fondu bu vəsaiti bəzi kiçik, qeyri-müsəlman dini icmalarını dəstəkləmək üçün istifadə edib.

DQİDK 2022-ci ildə dini etiqad azadlığı haqqında qanuna bu vəzifələri QMİ-dən DQİDK-ya həvalə edən dəyişikliklərdən sonra ölkədəki bütün məscidlərə dini liderlərin təyin edilməsini və yenidən təyinatını davam etdirib. Hökumət düzəlişlərin xarici təsirlərdən qorunmaq və terrorizmin qarşısını almaq üçün zəruri olduğunu bildirib. Vətəndaş cəmiyyəti qrupları bildiriblər ki, dəyişikliklər DQİDK-ya dini qruplar üzərində həddindən artıq nəzarət imkanı verib. DQİDK-nın sədr müavini Gündüz İsmayılov DQİDK-nın Təyinat Komissiyasının sədri vəzifəsini davam etdirib.

Prezidentin 2022-ci ilin dekabr fərmanı ilə hökumət DQİDK-nın 2023-cü ildə fəaliyyəti üçün 6,8 milyon manat (4 milyon ABŞ dolları) ayırıb.

Aprelin 6-da DQİDK-nın sədri Mübariz Qurbanlı mətbuata açıqlamasında bildirib ki, rəhbərlik etdiyi komitə DQİDK-nın kargüzarlıq üzrə səlahiyyətlərini həyata keçirən ilk 11 ayı ərzində 118 müsəlman din xadimini işdən azad edib. Qurbanlının sözlərinə görə, işdən azad olunanların bəziləri dini tədrisdə "İran təsiri" ilə əlaqədar olub, digərləri isə kifayət qədər dini təhsil olmamalarına və ya işlərində səhvlərə yol verdikləri üçün işdən çıxarılıblar. DQİDK daha əvvəl ölkədə 900-ə yaxın müsəlman din xadiminin olduğunu bildirmişdi. İyunun 21-də DQİDK-nın sədr müavini İsmayılov DQİDK-nın komissiyasının 2022-ci ildən yeni əsasnamənin qüvvəyə mindiyi vaxtdan bəri 181 müsəlman din xadimini tutduqları vəzifələrdən azad etdiyini bildirsə də, işdən çıxarılma səbəbini açıqlamayıb.

"Forum 18" bildirib ki, yanvarın 13-də bir qrup şiə müsəlman azyaşlı uşaqları ilə birlikdə Məhəmməd peyğəmbərin qızı Fatimənin mövlud gününü qeyd etmək üçün Bakıda ticarət mərkəzinə toplaşıblar. Yanvarın 14-də hökumət tədbirdə iştirak edənlərdən 7 nəfəri azyaşlı uşaqları icazəsiz dini ayinlərin icrasına cəlb etdiklərinə görə qanunu pozmaqda ittiham ediblər. Hakimiyyət təqsirləndirilən şəxslərin dördünü, hər birini 1500 manat (880 dollar) olmaqla, cərimələyib. İttiham olunan şəxslərdən biri məhkəmədə bildirib ki, uşağı sadəcə başqaları ilə oynamaq üçün aparıb və dini məclisdə iştirak etmək niyyəti olmayıb.

Yehova Şahidlərinin noyabr ayında dərc edilmiş illik hesabatında bildirib ki, il ərzində polisin Yehova Şahidlərinin dini inanclarını sülh yolu ilə başqaları ilə bölüşməsinə müdaxilə etməsi halları olub. Hesabata görə, "Adətən, polis əməkdaşları Şahidləri polis bölməsinə aparır və hədələyirlər". Məsələn, fevralın 23-də Bakıda polis öz etiqadlarını bölüşən bir qrup Yehova Şahidini saxlayıb və polis bölməsinə müşayiət edib. Zabitlər qrupu iki saat yarım saxlayıb, bu müddət ərzində zabitlərdən biri onlardan daha Bakıda təbliğat aparmayacağına dair vəd verən izahat yazmağı tələb

edib. Yehova Şahidləri bunu etməkdən imtina edib. Nəhayət, polis onları sərbəst buraxıb.

2020-ci ildə Azərbaycanın nəzarətinə qayıdan ərazilərdə minalanma problemi səbəbindən azərbaycanlılar bir çox məscid və dini obyektləri ziyarət edə bilməyib.

Bəzi xristian icmaları DQİDK-nın onlarla əlaqə saxlamağa davam etdiyini və onların fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılmasına çalışdığını bir daha bildirdilər. Məsələn, Yehova Şahidləri icmasının üzvləri DQİDK-nın inzibati və hüquqi məsələlərlə bağlı köməklik göstərdiyini bildiriblər.

Hökumət dini materialların idxalı, yayılması və satışı üzərində nəzarət tətbiq etməyə davam etmişdir. Bəzi kiçik qeyri-müsəlman icmaları dini ədəbiyyatın idxalında heç bir çətinlik çəkmədiklərini bildirmişdirlər və bununla bağlı hökumətlə münasibətlərin getdikcə yaxşılaşmasını bildirmişdirlər.

İl ərzində hökumət yenə də BMT-nin İnsan Hüquqları Komissiyasının 2021-ci ildə dini ədəbiyyatın saxlanmasına və fərdi evlərdə dinc dini ayinlərin keçirilməsinə icazə verən qanuna dəyişiklik edilməsi ilə bağlı verdiyi tövsiyələrə əməl etməyib. Tövsiyələr komissiyanın 2013-cü ildə hökumətin altı Yehova Şahidini dini ədəbiyyata sahib olduqlarına və şəxsi evdə xidmətlərinə görə cəzalandıraraq, onların hüquqlarını pozduğunu müəyyən etməsindən irəli gəlirdi.

DQİDK-nın sədr müavini İsmayılov avqustun 8-də bildirib ki, idxalla bağlı müraciətlər əsasında yanvar-iyul ayları arasında komitənin Dinşünaslıq Ekspertiza Qrupu tərəfindən 2100-dən çox dini ədəbiyyata baxış keçirilib. DQİDK-nın hesabatına əsasən, onun baxışı dini dözümsüzlüyü ehtiva edən, ayrı-seçkiliyi təbliğ edən və ya radikal təbliğatı təbliğ edən ədəbiyyatın qanunsuz idxalının qarşısını alıb. Komitə həmçinin bildirib ki, ilin əvvəlindən ölkədə çapı nəzərdə tutulan yerli istehsal olan 134 dini ədəbiyyata baxış keçirilib.

İlin sonuna olan məlumata görə, DQİDK ölkədə dini ədəbiyyatın satışına icazə verən 44 pərakəndə satış məntəqəsini siyahıya alıb.

Aprel ayında "Caucasus Heritage Watch" (CHW) tədqiqat qrupu Dağlıq Qarabağda etnik ermənilərin nəzarəti altında olan 109 Azərbaycan mədəni irsinin nümunəsinə, o cümlədən məscidlər, məqbərələr və qəbiristanlıqlara dəyən ziyanı qiymətləndirən 2020-ci il peyk fotoqrafiyası və digər vizual görüntülərə əsaslanan "Müharibələr arasında: Tanınmamış Dağlıq Qarabağ Respublikasında Azərbaycan mədəni irsinə münasibətin peyk araşdırması, 1994-2020" adlı araşdırma dərc edib. Hesabatda qeyd olunur ki, Azərbaycanın 42 mədəniyyət obyekti dəyişməz qalıb, 39-a böyük ziyan dəyib, 16-sı dağıdılıb, 9-una cüzi ziyan dəyib, ikisi təmir edilib, biri bərpa edilib. Peyk analizi əsasında CHW böyük ziyan dəymiş 39 obyektdən 20-nin 2005-ci ilin sonunadək zədələndiyini müəyyən etmişdir. CHW, ağır zədələnmiş qalan 19

obyektin 2009 və 2010-cu illərdə zərər gördüyünü bildirmişdir. Etnik erməni nəzarəti zamanı Azərbaycan mədəniyyət abidələri nümunələri arasında zərərə görə tədqiq edilən 6 məscid və 7 məqbərə dağıdılıb. Hesabatda Dağlıq Qarabağdakı azərbaycanlıların dini və mədəni obyektlərinə mənfi təsirlərin əhəmiyyətli olduğu və de-fakto olaraq Erməni hakimiyyətinin "geniş miqyaslı talanların və bir neçə məqsədyönlü məhvetmə hallarının qarşısını ala bilmədikləri" vurğulanır. CHW daha sonra qiymətləndirdi ki, peyk şəkilləri və digər əyani sübutlar daxil olmaqla, nəzərdən keçirdiyi məhkəmə-tibbi sübutlar "1994-cü ildən 2020-ci ilə qədər [etnik] ermənilərin nəzarətində olan [Dağlıq Qarabağ ərazisində] Azərbaycan tarixinin və mədəni həyatının maddi izlərini sistematik şəkildə silmək cəhdinin olmadığını göstərdi." CHW bildirib ki, apardığı araşdırmalar həm Azərbaycan rəsmilərinin regiondakı məscidlərin demək olar ki, tamamilə dağıdılması ilə bağlı iddialarının, həm də ermənilərin bütün zərərin Sovet dövründə baş verdiyinə dair əks iddialarının düzgün olmadığını müəyyən edib.

İyunun 22-də CHW Dağlıq Qarabağ bölgəsindəki, o cümlədən 2020-ci ildə Azərbaycanın nəzarətinə qaytarılan ərazilərdəki mədəni irs yerlərini təhlükə altına alan "narahatedici trendlər" kimi sənədləşdirilən hesabat dərc edib. Hesabatda bu yerlər arasında arasında yol tikintisi nəticəsində zədələnmiş erməni qəbiristanlığı və hərbi məntəqələrin yaradılması nəticəsində zədələnmiş Azərbaycan qəbiristanlığı, eləcə də tikinti və ya hərbi əməliyyatların zəbt edilməsi ilə "təhdid altında olan" kimi təsnif etdilən bir neçə kilsə qeyd edilib.

May ayında DQİDK sədri Qurbanlı mətbuata açıqlama verərək bildirmişdi ki, erməni din xadimləri Dağlıq Qarabağda azərbaycanlıların Xudavəng monastırı adlandırdıqları Dadivank monastırını tərk etməlidirlər. Qurbanlı bildirib ki, ermənilərin Qafqaz Albanı olduğu monastırla heç bir əlaqəsi yoxdur və din xadimləri Azərbaycandakı xristian udilərin monastırı ziyarət etməsinə mane olurlar. Noyabr ayında Azərbaycanın Hollandiyadakı səfirliyinin sosial şəbəkələrdəki paylaşımlarında Ermənistan hökumətinin yalandan monastırın erməni olduğunu iddia etdiyi bildirilirdi.

Dağlıq Qarabağda sentyabr döyüşləri zamanı 13-cü əsrə aid Çərəktar monastırına uzaqdan atəş açan Azərbaycan əsgərini əks etdirən geniş yayılmış video ortaya çıxmışdır. Açıq mənbəli araşdırma qrupu Bellingcat daha sonra atəşin monastırın dəydiyi və ya zədələdiyi bəlli olmasa da videonun yerinin təsdiqlədiyini söylədi.

Sentyabrın 22-də BMT-nin mədəni hüquqlar üzrə xüsusi məruzəçisi Aleksandra Xanthaki bəyan edib ki, Azərbaycan Dağlıq Qarabağda ermənilərin mövcudluğunun izlərini aradan qaldırmaq və ya onların Qafqaz albanlarına məxsus olması kimi yenidən şərh etmək üçün səylərini davam etdirir. Xüsusi məruzəçi qeyd edib ki, Beynəlxalq Ədalət Məhkəməsi, Avropa Parlamenti və Avropa Şurası hamısı erməni irsinin Qafqaz-alban "hekayələri"nin təbliği ilə əvəz olunmasından narahatlığını ifadə

edib və regionun incəsənət, memarlıq və arxeologiya üzrə ekspertlərin böyük əksəriyyəti "bu revizionist iddiaları yalan sayaraq rədd etmişdi". APA-nın may ayında verdiyi məlumata görə, hökumət məqalədə "Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid olduğu" bildirilən Hadrutdakı erməni apostol kilsəsinin və ona bitişik üç binanın bərpası və konservasiyası planlarını açıqlayıb.

**Ayrı-seçkilik və ya qeyri-bərabər rəftarla əlaqəli pozuntular**

Yanvarın 4-də Prezident Əliyev ölkənin pravoslav xristian icmasını Milad bayramı münasibətilə təbrik etdi və mədəni müxtəlifliyin, humanizmin və tolerantlığın qorunub saxlanması və təşviq edilməsinin dövlət siyasətinin məqsədləri olduğunu bildirdi. Əliyev aprelin 14-də pravoslav xristian icmasını Pasxa bayramı münasibətilə təbrik edib. Prezident Əliyev sentyabrın 14-də yəhudi icmasını Roş-Ha-Şana bayramı münasibətilə təbrik edib və müxtəlif xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimadı vurğulayıb. O, yəhudi icmasının "cəmiyyətimizin ayrılmaz hissəsi və bərabərhüquqlu üzvü" olduğunu söyləyib. Mayın 30-da Bakıda İsrail prezidenti İsaak Hersoqla görüşündə Prezident Əliyev yəhudi icmasının ölkənin müasir inkişafında mühüm rol oynadığını bildirib.

## Bölmə III. Dini Etiqad Azadlığına Cəmiyyətin Hörmətinin Vəziyyəti

Dini məsələlər üzrə yerli ekspertlər, dini liderlər və vətəndaş cəmiyyəti nümayəndələri bildiriblər ki, vətəndaşlar və vətəndaş cəmiyyəti təşkilatları yəhudilər, rus pravoslavları və katoliklər kimi "ənənəvi" dini azlıq qruplarına dözməkdə və bəzi hallarda onlara maddi dəstək verməkdə davam edirlər. Bu mənbələr həmçinin bəzi şəxslərin ölkədə tarixi mövcudluğu az olan qruplara, məsələn, Baptistlər və Yehova Şahidlərinə şübhə və inamsızlıqla baxdıqlarını söylədi.

## Bölmə IV. ABŞ hökumətinin siyasəti və iştirakı

Müvəqqəti işlər vəkili və səfirliyin digər rəsmi şəxsləri QHT-lərin dini inanclarına görə həbsdə olduqlarını bildirdikləri şəxslərin azadlığa buraxılması üçün dövlət rəsmiləri ilə danışıqlar aparıblar. Müvəqqəti işlər vəkili və səfirliyin müşavirləri həm də konstitusiyada nəzərdə tutulduğu kimi, etiqadına görə hərbi xidmətdən imtina edənlər üçün hərbi xidmətə mülki alternativin həyata keçirilməsi ilə bağlı hökumətlə danışıqlar aparıblar. Səfirlik rəsmiləri ölkədə "uyğunsuz" şiə müsəlmanlarının geniş miqyaslı həbsləri ilə bağlı hökumətə narahatlıqlarını bildiriblər. DQİDK rəsmiləri ilə görüşlər zamanı onlar kiçik dini qrupların qeydiyyatı prosesində uzun müddətdir davam edən problemlərin və dini azlıqların üzləşdiyi digər maneələrin həllinə çağırıblar. Səfirliyin rəsmi şəxsləri müxtəlif səviyyələrdə hökumət rəsmiləri ilə 2022-ci ildə qəbul edilmiş din etiqad azadlığı qanununa və onunla bağlı qaydalara edilən dəyişiklikləri, o cümlədən onların tətbiqinin di ibadətin sərbəst şəkildə həyata keçirilməsinə təsirini müzakirə ediblər. Müvəqqəti işlər vəkili və digər yüksək

səviyyəli ABŞ rəsmiləri hökumət rəsmiləri ilə görüşlərdə yeni geri qaytarılmış ərazilərdə dini və mədəni yerlərin qorunması çağırışı ilə çıxış edib.

Müvəqqəti işlər vəkili və səfirliyin digər rəsmi şəxsləri müsəlman, yəhudi və xristian icmalarının nümayəndələri, aparıcı hüquqşünaslar və dini azadlıqların monitorinqini edən vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri də daxil olmaqla, qeydiyyatdan keçmiş və qeydiyyatdan keçməmiş dini qrupların rəhbərləri ilə dini etiqad azadlığı, hərbi xidmətə mülki alternativ və DQİDK ilə əlaqələr mövzularını müzakirə etmək üçün müntəzəm görüşlər keçirməyə davam ediblər.

Səfirlik ictimai çıxışlarında və sosial media fəaliyyətində, eləcə də ictimai diplomatiya proqramlarında dini müxtəlifliyi və dini etiqad azadlığına dəstəyi nümayiş etdirib. Aprel ayında Müvəqqəti işlər vəkili dini fəalların hüquqlarını müdafiə etmək üçün çalışan hüquq müdafiəçiləri üçün iftar məclisi təşkil edib, onlara mühüm işlərinə görə təşəkkür edib və ABŞ hökumətinin ölkədə dini etiqad azadlığına verdiyi dəstəyi vurğuladı. Mart ayında ABŞ Dövlət Departamentinin Beynəlxalq Dini Etiqad Azadlıqları İdarəsinin rəsmiləri dini etiqad azadlığı ilə bağlı narahatlıqları hökumət rəsmiləri ilə müzakirə etmək və bir çox dini icmaların nümayəndələri ilə müzakirələr aparmaq üçün ölkəyə səfər ediblər.

29 dekabr 2023-cü il tarixində 1998-ci ilin Beynəlxalq Dini Etiqad Azadlığı Aktına uyğun olaraq, ABŞ Dövlət Katibi Azərbaycanı dini etiqad azadlığının pozulması və ya pozuntulara dözümlü yanaşmasına görə Xüsusi Nəzarət Siyahısına daxil edib.